

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 94 (23.981)

*21 may 2022-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 20-də ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki qəbul edib. Dövlətimizin başçısı Azərbaycanın uzun illər ICESCO ilə səmərəli və uğurlu əməkdaşlıq həyata keçirdiyini vurğulayaraq torpaqlarımızın ermənilər tərəfindən işğal olunduğu, eləcə də 44 günlük müharibə dövründə ICESCO-nun ölkəmizin ədalətli mövqeyini davamlı dəstəklədiyinə görə minnətdarlığını bildirib. Dövlətimizin başçısı qeyd edib ki, biz istərdik UNESCO-nun nümayəndələri də işğaldan azad olunmuş ərazilərə səfər edərək ermənilərin törətdikləri dağıntıları öz gözləri ilə görsünlər. Lakin əfsuslar olsun ki, müharibənin bitməsindən il yarımdan artıq vaxt keçməsinə baxmayaraq, bu təşkilatın nümayəndələri həmin ərazilərə səfər etməyiblər. Prezident İlham Əliyev vurğulayıb ki, ermənilər tərəfindən ölkəmizə vurulan maddi ziyanın qiymətləndirilməsində və bunun beynəlxalq ictimaiyyətə çatdırılmasında ICESCO-nun fəaliyyəti və onun ekspertlərinin iştirakı önəmli rol oynaya bilər.

Xoş sözlərə görə minnətdarlığını ifadə edən ICESCO-nun Baş direktoru işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən böyük quruculuq işlərinin şahidi olduqlarını məmnunluqla qeyd edib. ICESCO-nun Baş direktoru dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim edib.

## 2022-ci ilin yanvar-aprel aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada 2022-ci ilin yanvar-aprel aylarında 776 milyon 670 min 600 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2021-ci ilin müvafiq dövründəki göstəricidən 1,7 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 2 faiz artaraq 1676,8 manat olmuşdur.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 2022-ci ilin yanvar-aprel aylarında 354 milyon 200 min 800 manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz çoxdur.

* * *

Vəsait qoyuluşları çərçivəsində 2022-ci ilin yanvar-aprel aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 297 milyon 433 min 300 manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,3 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 287 milyon 364 min 300 manatı və ya 96,6 faizi tikinti-quraşdırma işlərinin



payına düşmüşdür.

* * *

2022-ci ilin yanvar-aprel aylarında 46 milyon 559 min 100 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,9 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 8837 ton, süd istehsalı 26950 ton olmuşdur. 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 6,2 faiz, süd istehsalı isə 1,4 faiz artmışdır.

* * *

2022-ci ilin yanvar-aprel aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 19 milyon 942 min 900 manat olmuşdur ki, bu da 2021-ci ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 2,8 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 14 milyon 522 min 500 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,6 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2022-ci ilin yanvar-aprel aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 95 milyon 907 min 100 manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il öncəki göstəricidən 39,2 faiz çoxdur. Verilmiş kreditlərin 8 milyon 433 min 100 manatı və yaxud 8,8 faizi qısamüddətli, 87 milyon 474 min manatı və yaxud 91,2 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 384 növdə məhsul istehsal olunur ki, bunun da 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

* * *

2022-ci ilin yanvar-mart aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış ortaaylıq əməkhaqqı 585,8 manata çatdırılmışdır ki, bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 9,2 faiz çoxdur.

* * *

1 aprel 2022-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 1397 nəfər artaraq 463 min 388 nəfər olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Keyfiyyətli və rəqabətqabiliyyətli məhsul istehsalı təşviq olunur

*Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən yerli məhsulların daxili və xarici bazarlarda rəqabətədavamlı olması üçün keyfiyyət standartlarına əməl edilməsinə nəzarət işi aprel ayı ərzində də davam etdirilmiş, ümumilikdə, məhsulların 58, o cümlədən qida məhsullarının 54 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya sınağı aparılmış və bu istiqamətdə nöqsan aşkar edilməmişdir.*

Bu gün muxtar respublikada dövlət tərəfindən həyata keçirilən aqrar islahatlarda arıçılığın inkişafına xüsusi önəm verilir. “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”nın icrası istiqamətində müvafiq dövlət qurumlarının nümayəndələri ilə birlikdə ötən ay Kəngərli rayonunun Çalxanqala və Naxçıvan şəhərinin Qaraxanbəyli kəndlərində arıçılıq məhsulları istehsalçıları ilə maarifləndirici görüşlər keçirilmiş, bal məhsulunun fiziki-kimyəvi göstəricilərinə dair müvafiq standartdan çıxarışlar təqdim olunmuşdur. Həmçinin bal məhsulunun 2 halda laboratoriya analizi aparılmış, nəticələrinin standartın tələblərinə uyğunluğu müəyyən edilmişdir.

Qəbul edilmiş müvafiq Dövlət proqramlarının icrası istiqamətində hesabat ayında kənd təsərrüfatı məhsullarının 19, meyvə-tərəvəz məhsullarının isə 17 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya analizləri aparılmış, nəticələrin standartlara uyğunluğu müəyyən olunmuşdur. Hesabat dövründə ailə təsərrüfatlarında istehsal edilən kənd təsərrüfatı məhsulları üçün 6 etiket layihəsi standartlara uyğun olaraq hazırlanmış və aidiyyəti üzrə təhvil verilmişdir.

“2022-ci ilin Naxçıvan Muxtar Respublikasında “Sənaye ili” elan edilməsinə dair Tədbirlər Planı”nın icrası istiqamətində ötən ay sənaye məhsullarının 36 halda (ərzaq məhsullarının 32, qeyri-ərzaq məhsullarının 4 halda) laboratoriya analizləri aparılmış və bu istiqamətdə nöqsan aşkar edilməmişdir.

“Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı”nın icrası ilə bağlı “Naxçıvan qovurması”nın istehsalının genişləndirilməsi, kiçikhəcmli taralarda qablaşdırılması və ixracının dəstəklənməsi, meyvə və tərəvəzlərin, bostan məhsullarının qurudulması, qablaşdırılması, etiketlənməsi ilə əlaqədar aidiyyəti dövlət orqanlarının əməkdaşları ilə birlikdə Babək şəhərində ailə təsərrüfatları üçün seminar-müşavirə keçirilmiş, ümumilikdə, 25 ailə təsərrüfatına maarifləndirici bukletlər və “Naxçıvan qovurması” əmtəə nişanlı etiketlər təqdim olunmuşdur. Hesabat ayında 2 ailə təsərrüfatı üçün istehsal etdikləri məhsulların etiketlərində məhsulun adının və digər məlumatların orfoqrafik qaydalara uyğun yazılması, saxlanma şəraitinin və yararlılıq müddətinin qüvvədə olan standartların tələblərinə uyğun göstərilməsini təmin etmək məqsədilə 10 etiket layihəsi hazırlanmış, həmçinin məhsulların üzərinə vurulması üçün 120 hazır etiket ailə təsərrüfatlarına təqdim edilmişdir. Ailə təsərrüfatı məhsullarının keyfiyyətinə nəzarətin aparılması üçün ötən ay İqtisadiyyat Nazirliyinin əməkdaşları ilə birgə məhsullardan 10 halda nümunələr seçilərək laboratoriyaya təqdim olunmuş, nəticələrin standartlara uyğunluğu müəyyən edilmiş və sınaq protokollarının surəti aidiyyəti üzrə ailə təsərrüfatlarına çatdırılmışdır.

“Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası üzrə aidiyyəti dövlət qurumlarının əməkdaşları ilə birlikdə Şahbuz rayonunun Külüs kəndində 15 kənd təsərrüfatı məhsulları istehsalçısının iştirakı ilə seminar-müşavirə keçirilmiş, iştirakçılara “Üzvi gübrələr” və “Mineral gübrələr” adlı bukletlər və kənd təsərrüfatı məhsulları üzrə standartlarda müəyyən edilmiş təhlükəsizlik tələblərinə dair çıxarışlar təqdim olunmuşdur.

2017-ci il 25 iyul tarixli beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında xarici bazarlara çıxış imkanına malik məhsul istehsalına diqqətin artırılması, qarşıdakı dövrdə bu imkanların bir daha araşdırılması, ixracın coğrafiyasının genişləndirilməsi üçün verilmiş tapşırıqların, həmçinin “Naxçıvan Muxtar Respublikasında ixrac potensialının və ixraca dövlət dəstəyinin artırılması ilə bağlı Tədbirlər Planı”nın icrası istiqamətində muxtar respublikadan kənara məhsulların göndərilməsi və satışı üzrə fəaliyyət çərçivəsində Bakı şəhəri və digər bölgələrimizə tələbata uyğun olaraq davamlı qaydada ailə təsərrüfatı məhsullarının göndərilməsi təmin edilir.

“2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı”nın icrası üzrə Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti ilə birgə ötən ay “Yerləşmə vasitələrinin təsnifatı. Minimum tələblər – AZS 906:2022” mövzusunda seminar keçirilmiş, turizm sahəsində yeni qəbul olunmuş dövlət standartı haqqında məlumat verilmişdir.

Muxtar respublikada alkoqollu içkilər istehsal edən 2 müəssisədə istehsal olunan arağın 2, pivənin 1 halda laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin standartlara uyğunluğu müəyyənləşdirilmişdir.

Naxçıvan Muxtar Respublikasında təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələr barədə keçirilmiş müşavirədə verilən tapşırıqların və “Naxçıvan Muxtar Respublikasında gigiyena və epidemiologiya sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı 2022-2025-ci illər üzrə Dövlət Proqramı”nın icrası istiqamətində qida məhsullarının istehsalı, daşınması, saxlanması və satışı zamanı tibbi-bioloji tələblərə, sanitar-gigiyena norma və qaydalarına əməl olunması istiqamətində nəzarət tədbirlərinin həyata keçirilməsi məqsədilə Gigiyena və Epidemiologiya Mərkəzi ilə birgə muxtar respublikada fəaliyyət göstərən 30 müəssisəyə baxış keçirilmiş, 18 müəssisədə aşkar olunmuş nöqsanlar aradan qaldırılmışdır.

Hesabat ayında Fövqəladə Hallar Nazirliyi və Dövlət Gömrük Komitəsi ilə birgə idxal olunan qızdırıcı elektrik və qaz cihazlarına baxış keçirilmiş və müvafiq təhlükəsizlik sistemi ilə təmin olunmayan cihazların idxalına icazə verilməmişdir.

Muxtar respublikada keyfiyyət infrastrukturunun təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilməkdədir.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin mətbuat xidməti***

*“Sənaye ili” – 2022*

# “Şərur-3” Məhdud Məsuliyyətli Cəmiyyəti müstəqilliyin ilk illərində yaradılmış istehsal müəssisəsidir

***Muxtar respublikamızda gərgin zəhmət hesabına nail olunmuş və bu gün özünün yeni inkişaf mərhələsinə qədəm qoymuş sosial-iqtisadi inkişafda quruluşun tələblərinə uyğun yeni bazar münasibətlərinin formalaşması da uzun bir prosesdən keçib.***

Müstəqillik qazandığımız ilk illərdə ölkəmizdə baş verən bəzi hadisələr muxtar respublikamızda da belə münasibətlərin düzgün formalaşdırılmasına öz mənfi təsirini göstərirdi. Sovet dönəmində mövcud olan istehsal müəssisələrinin dağıdılması bir sıra sahələrdə ciddi durğunluq yaratmış, məşğulluq problemi ifrat həddə çatmış, gündəlik tələbat malları belə, qıta çıxmışdı.

Elə o vaxtlar yağışdan sonra çıxan göbələklər kimi ən ucqar dağ və sərhəd yaşayış məntəqələrində belə, açılan şəxsi dükanlarda satılan məhsulların qiyməti ilə alıcı cibi tərs mütənasib idi. Düzdür, belə obyektlərin fəaliyyəti uzun sürmədi.

Kənar yerlərdən məhsul gətirilməsi daha böyük çətinliklər yaradırdı. Üstəgəl ki, belə məhsulların keyfiyyəti də xeyli aşağı idi, sanitar-gigiyenik qaydalardan danışmağa dəyməzdi. Bütün bunlar o dövrün real mənzərəsi kimi bu sətirlərin müəllifinin gözləri önündədir.

... Görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə gəlməsi, sözün həqiqi mənasında, naxçıvanlıların ürəyində bir ümid işığı yaratdı. Qısa müddət ərzində ərzaq təhlükəsizliyinin təmin edilməsi, elə digər sahələrdə də olan ciddi çatışmazlıqların aradan qaldırılması prioritet vəzifəyə çevrildi. Yolları bağlanaraq blokada şəraitində yaşayan bir məmləkətdə həmin işlərin görülməsinin çətinliklərini o dövrü yaşayanlar yaxşı xatırlayırlar...

“Həmin çətinliklərin aradan qaldırılması üçün ulu öndərin müəyyənləşdirdiyi düzgün iqtisadi siyasət strategiyası öz bəhrələrini verməyə başladı”. Bu sözləri “Şərur-3” Məhdud Məsuliyyətli Cəmiyyətinin sədri, elə həmin illərdə sahibkarlıq fəaliyyətinə başlamış, bu sahədə yüksək təcrübə qazanmış *Zakir Məmmədov* deyir. Onunla həmin illərə ekskurs edir, keçilən yola nəzər salırıq. Müsahibim deyir ki, o dövrdə ulu öndər Heydər Əliyevin məqsədi muxtar respublikanın iqtisadi potensialının səfərbər edilərək tam hərəkətə gətirilməsindən, iqtisadi resursların dövriyyəyə cəlb olunmasından ibarət idi. Bu illər ərzində Naxçıvanın sosial-iqtisadi inkişafına nail olmaq üçün ümummilli lider çox qətiyyətli addımlar atdı, bütün sahələrdə olan mövcud potensial fəal surətdə dövriyyəyə cəlb edildi. Bunun məntiqi nəticəsi olaraq iqtisadiyyatın bütün sahələrində olduğu kimi, sənayenin inkişafında da böyük uğurlar qazanıldı. Əsas hədəflər yeni meyarlara cavab verən müəssisələrin yaradılması, yeni müəssisələrdə tətbiq olunan texnologiyanın əhatə dairəsinin daha da genişləndirilməsindən ibarət idi.

Zakir Məmmədov hazırda rəhbəri olduğu istehsal müəssisəsinin də o vaxtlar fəaliyyətə başladığını diqqətimizə çatdırır:

– “Şərur-3” Məhdud Məsuliyyətli Cəmiyyəti üçün yeni bina tikilib, ən müasir istehsal avadanlıqları quraşdırılıb. Sahibkarlığın İnkişafı Fondu tərəfindən ayrılan kredit və şəxsi vəsait hesabına yaradılan müəssisədə emal bölməsi, istehsal, qablaşdırma, meyvə və bitki cövhərlərinin saxlanılması sahələri, laboratoriya, iş otaqları, hazır məhsul və xammal anbarları vardır. İstehsal prosesi tamamilə avtomatlaşdırılıb. İstifadə olunan avadanlıqlar Türkiyə, Rusiya və İtaliyadan alınıb. Hər biri müasir standartlara cavab verən avadanlıqlar yüksəkkeyfiyyətli və rəqabətqabiliyyətli məhsul istehsalına imkan verib.

Öyrənirik ki, 27 nəfərin məşğulluğunun təmin edildiyi müəssisədə işçilərə gün ərzində bir dəfə yemək verilir. Onlar xüsusi geyim dəstləri ilə təmin olunublar. Bayram və əlamətdar günlərdə mükafatlandırılan işçilərin hər birinə tibbi kartlar açılıb: hər ay onlar tibbi müayinədən keçirilirlər.

İstehsal gücü saatda 2 min butulka olan müəssisədə ərik, albalı, qarağat olmaqla, 3 çeşiddə likör, kaklikotu, şaftalı, zirinc və başqa bu kimi xammaldan ibarət 8 çeşiddə xüsusi araqlar, 13 çeşiddə araq istehsal edilir. Məhsul gümüş filtrdən keçirilərək standartlara uyğun süzülür. Müxtəlifölçülü şüşə butulkalarda qablaşdırılan içkilər lazımi laboratoriya analizlərindən keçirildikdən və keyfiyyətinə müvafiq qaydada zəmanət verildikdən sonra satışa buraxılır.





“Şərur-3” Məhdud Məsuliyyətli Cəmiyyəti öz məhsulları ilə Rusiya Federasiyasında, Çin Xalq Respublikasında, Türkiyədə və Bakıda keçirilən beynəlxalq sərgilərdə iştirak edib, mükafatlara layiq görülüb. Gəncə şəhərində keçirilən şərab festivalında fəxri fərmanla mükafatlandırılıb.

Məhsulun ticarət obyektlərinə daşınması üçün müəssisədə iki avtomobildən istifadə olunur. Qeyd edək ki, “Şərur-3” MMC-nin məhsulları paytaxt Bakıya və ölkənin digər bölgələrinə də göndərilir.

Zakir Məmmədov deyir ki, 2015-ci il dekabr ayının 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin istehsal prosesinin ardıcıl texnoloji tələblər əsasında aparılması, keyfiyyətə daim nəzarət edilməsi, daxili bazarın tələbatının ödənilməsi və ixrac imkanlarının yaradılması barədə verdiyi tapşırıqların yerinə yetirilməsi müəssisədə yeni uğurlar qazanılmasına stimul olub.

Onun 2022-ci ilin muxtar respublikada “Sənaye ili” elan edilməsi ilə bağlı fikirləri də maraqlıdır:

– Əbəs yerə demirlər ki, sənaye inkişafın lokomotividir. Buna görə də muxtar respublikamızda sənayenin inkişafı istiqamətində həyata keçirilən tədbirlər hesabına bu gün təkcə paytaxt şəhərimiz Naxçıvanda deyil, muxtar respublikanın ən ucqar yaşayış məntəqələrində belə, müxtəlif istehsal sahələri fəaliyyət göstərir. Bu, daxili bazarda yerli məhsulların xüsusi çəkisinin artmasına öz töhfəsini verməklə, həm də insanların məşğulluq probleminin həllinə müsbət təsirini göstərir, kənar yerlərdən gətirilən məhsulların qarşısını alır və beləliklə də, min manatlarla pul vəsaiti muxtar respublikada qalır. Həmin vəsait yeni sənaye istehsalı sahələrinin yaradılmasına, muxtar respublikanın sosial-iqtisadi inkişafına sərf olunur. Fevral ayının 4-də Naxçıvan Biznes Mərkəzində muxtar respublika sahibkarları ilə keçirilən görüşdə də muxtar respublika rəhbəri bildirdi ki, yaşayış məntəqələrində iri ticarət mərkəzlərinin və bazarların fəaliyyət göstərməsi, mövsüm ərzində yarmarkaların təşkili, yerli məhsullara üstünlük verilməsi və istehsaldan birbaşa satışa prinsipinin dəstəklənməsi məhsul istehsalçılarının marağını artırmışdır. Bu, bir həqiqətdir ki, sahibkarlığın inkişafı məşğulluğun təmin olunmasına və sosial rifaha birbaşa təsir edir. Muxtar respublikada dövlətin sahibkarlar üçün yaratdığı şərait, görülən işlər və əldə olunan nəticələr bunu bir daha təsdiq edir. Müstəqillik illərində muxtar respublikada özəl sektor üzrə 70 minə yaxın yeni iş yeri açılmışdır. Hazırda diyarımızda məşğul əhalinin 85 faizi özəl sektorda çalışır. Sənayenin uğurlu inkişafı da birbaşa sahibkarlıq fəaliyyəti ilə bağlıdır. Məhz bu səbəbdəndir ki, muxtar respublikada istehsal edilən sənaye məhsulunun 93 faizi özəl bölmənin payına düşür.

Müəssisə rəhbərinin yeni istehsal sahəsi yaratmaq üçün biznes-plata hazırlamasından xəbərim var idi. Ona görə də bu barədə bir qədər məlumat verməsini xahiş edirəm. Deyir ki, muxtar respublikada və ölkənin digər bölgələrində karton taraya və kağız paketə olan tələbatın yerli istehsal hesabına ödənilməsi məqsədilə fəaliyyət göstərəcək yeni istehsal sahəsi muxtar respublikada sahibkarlığın inkişafına göstərilən daha bir qayğının ifadəsidir. “Şərur-3” Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdində, Şərur Sənaye Məhəlləsində fəaliyyət göstərəcək müəssisənin günlük istehsal gücü birnövbəli iş rejimi ilə 52 min karton tara, 240 min ədəd kağız paketdir. Sahibkarlığın İnkişafı Fondunun güzəştli krediti ilə Türkiyə Respublikasından avadanlıq və Rusiya Federasiyasından xammal alınacaq. Bu istehsal sahəsinin yaradılmasında məqsəd daxili bazarın qorunması, yeni iş yerlərinin açılmasıdır. İlkin olaraq yeni istehsal sahəsində 6 işçinin çalışması nəzərdə tutulub. Sonrakı mərhələlərdə müəssisənin fəaliyyətinin genişləndirilməsi məqsədilə yerli mütəxəssis potensialından istifadə olunacaq. İstehsal zamanı ekoloji təhlükəsizlik tədbirləri diqqətdə saxlanılacaq.

Zakir Məmmədovla söhbətimiz bir daha əminlik yaratdı ki, bu gün muxtar respublika sənayesi hərtərəfli dövlət qayğısı hesabına özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Ona görə də “Sənaye ili”ndə daha böyük uğurlar qazanılacağı şəksizdir.

**Muxtar MƏMMƏDOV**

*Ailə təsərrüfatlarımız*

# Müştəri məmnuniyyəti halal zəhmət sahiblərinə böyük zövq verir

***Diyarımızda qədim tarixi olan arıçılıq aqrar sahənin qədim və gəlirli təsərrüfat növlərindən biridir. Bu sahə ilə muxtar respublikamızın, demək olar ki, hər yerində məşğul olurlar. Buna əlverişli iqlim şəraiti, zəngin bitki örtüyü imkan verir. Elə ki yaz gəldi, arılar qış yuxusundan oyanır, yaşıl çəmənlərə, bağlara üz tutur, min bir rəngli gül-çiçəkdən şirə çəkirlər. Arının və onlara qulluq edən insanların zəhməti sayəsində əldə edilən Naxçıvan balı özünəməxsus dadı və keyfiyyəti ilə seçilir. Sevindiricidir ki, bu gün arıçılığın inkişafına göstərilən dövlət qayğısı diyarımızda bu sahə ilə məşğul olan ailə təsərrüfatlarının sayını artırır.***



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”nın icrası, Naxçıvan şəhərində keçirilən “Arıçılıq məhsulları – bal satış yarmarkası” da arıçılar üçün geniş imkanlar açır. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatına istinad etsək, deyə bilərik ki, 1 yanvar 2022-ci il tarixə muxtar respublikada 100 min 86 arı ailəsi mövcud olub. Bu da 2017-ci ilin sonu ilə müqayisədə 40,8 faiz çoxdur. Həmçinin 2021-ci ildə muxtar respublikada 1506 ton bal istehsal edilib ki, bu da 2017-ci illə müqayisədə 5,8 faiz artım deməkdir.

Uzun illərdir ki, arıçılıqla məşğul olan ailə təsərrüfatçılarından biri də *Vaqif Məmmədov*dur. Naxçıvan şəhərində yaşayan müsahibimlə elə onun təsərrüfat sahəsində həmsöhbət oluram. Müsahibim deyir ki, 1979-cu ildən arıçılıqla məşğuldur:

– Doğrusunu deyim ki, hələ o vaxtlar bu maraqlı peşə sahibləri çox az idi, həm də arıçılıq haqqında az məlumat var idi. 10 arı ailəsi aldım və beləcə, bu işə başladım. İndi özümü bu maraqlı peşə ilə məşğul olmadan təsəvvür edə bilmirəm. Hazırda 170 arı ailəm var. Bal, çiçək tozu, mum, vərəmum kimi arıçılıq məhsulları tədarük edirəm. Ötən il hər arı ailəsindən, təxminən, 5 kiloqram bal, ümumilikdə isə 80 kiloqram çiçək tozu tədarük etmişəm. Müştəri məmnuniyyəti mənə böyük zövq verir. Belə ki, bal, çiçək tozu alan müştəri razı qaldıqda çəkilən zəhmətin boşa getmədiyini hiss edirəm. Bir də ki, muxtar respublikamızda arıçılığın inkişafına göstərilən xüsusi diqqət, bu sahə üçün subsidiyaların, ehtiyac olan dərman vasitələrinin pulsuz verilməsi mənim kimi digər təsərrüfat sahiblərini daha da həvəsləndirir.

Yazda arı ailələrinə qulluq qaydalarından danışan müsahibim qeyd etdi ki, arıçılıq zəhmət, diqqət tələb edən bir təsərrüfat sahəsidir. Bunun üçün bir sıra bilgilərə malik olmalısan. Mart ayından başlayaraq arı ailələrə qulluq etmək lazımdır ki, yaxşı məhsuldarlıq əldə edə biləsən:

– Bu il də arı ailələrinə yaz baxışı keçirərkən zəif arı ailələrini təsbit edərək birləşdirib, anasız ailələri müəyyən edib tədbir görüb, istiliklə təmin etmişəm. Qışlamanı yaxşı keçirən ailə uçuşu yaxşı, anasız, xəstəliyə tutulmuş, yemi qurtarmış ailələr uçuşu pis keçirirlər. Belə ailələri müayinə edib və uçuşa mane olan səbəbləri aradan qaldırmaq lazımdır. Yuvanın istiləşdirilməsi ilə arıların zəifliyinin qarşısını alır və onların çoxalmasını təmin edirik. Sürətlə çoxalma üçün yemləməni hər gün, yaxud günaşırı aparırıq. Müalicə-profilaktik yemləmə ananın yumurtaqoyma fəaliyyətini daha da sürətləndirir.

Arıçı deyir ki, əsasən, yerli arı cinsləri saxlamaqla məşğul olur:

– Yerli arı cinsləri həm iqlim şəraitinə yaxşı uyğunlaşır, həm də qışlamanı rahat şəkildə keçirirlər. Bu günlərdə arı ailələrini Naxçıvan şəhərindən çıxarıb aparacağam Şahbuz rayonu ərazisində olan Daylaqlı, Zərnətün, Batabat yaylağına – gülçiçəyin bol olduğu yerlərə. Orada ətirli çiçəklərdən, təbii bitkilərdən şirəçəkən arıların ərsəyə gətirdiyi bal dadlı və keyfiyyətli olur.

Vaqif Məmmədovun sözlərinə görə, arıçı üçün əldə etdiyi məhsulları satmaq da onun işə həvəsinin yaranmasında mühüm rol oynayır: – Naxçıvan şəhərində keçirilən “Arıçılıq məhsulları – bal” festivalı, eləcə də yarmarkalar köməyimizə çatıb. Belə tədbirlər arıçılıq məhsullarının satışı və təbliği üçün çox böyük əhəmiyyətə malikdir. 2016-cı ildə keçirilən festivalda “Ən yaxşı arıçılıq məhsulları – bal” nominasiyası üzrə birinci yerə çıxmışam. Arıçı bir qədər keçmişə qayıdaraq deyir ki, hələ birinci dəfə keçirilən bal satışı yarmarkasında bir çox arıçıların özlərində belə, çiçək tozu tədarük edilməsi haqqında məlumat yox idi. Hazırda isə çiçək tozu tədarük etməyən arıçı yox dərəcəsindədir.



Müsahibim 2017-ci ildə Dünya Arıçılar Birliyi Federasiyası tərəfindən iki ildən bir təşkil edilən, arıçılıq və turizm sektoru baxımından əhəmiyyət daşıyan, sayca 45-ci olan Apimondia Konqresində iştirakından da danışdı: – Bu tədbir dünya arıçılarının yığıncağı idi, muxtar respublikadan ilk dəfə mən iştirak etmişəm. Burada arıçılar dünyada arıçılıq təsərrüfatının bütün maraqlı tərəflərini, beynəlxalq platformada hazırkı elmi, texnoloji və istehsalat araşdırmalarını paylaşıb, elmi əlaqələr qurmaq imkanı əldə edirlər. Öyrəndiyim bir çox məlumatı da öz işimdə tətbiq edib və uğurlu nəticələr qazanıram.

Arıçılıq məhsullarının insan orqanizminin sağlamlığı baxımından faydaları barədə müsahibim qeyd edir ki, bal immuniteti gücləndirir, arı sancması isə bel ağrılarında əvəzolunmaz vasitədir. Hazırda arı sancması ilə bel ağrılarının müalicəsinin tətbiqi ilə məşğulam.

Qeyd edək ki, Naxçıvan şəhərində hər il ənənəvi olaraq təşkil edilən festivallarda, satış yarmarkalarında iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin arıçılarla görüşü, onların fəaliyyəti ilə maraqlanması, tövsiyə və tapşırıqlarını verməsi arıçıların fəaliyyətinə böyük stimul yaradır. Həmçinin muxtar respublikamızda arıçılığın elmi əsaslarla öyrənilməsinə diqqət artırılması, bu sahədə maarifləndirici seminarlar və beynəlxalq konfransların təşkili arıçıların bol və bərəkətli məhsul almasında onlara kömək edir.

**Güntac ŞAHMƏMMƏDLİ**

2022-ci il
“Şuşa ili”dir

# Şuşadan fəryad, haraylar deyil, sevinc sədaları yüksəlir

Qarabağın tacı, Azərbaycanın dilbər guşəsi və mədəniyyət paytaxtı Şuşada yaxın günlərdə Beynəlxalq kulinariya festivalı keçirildi. Festival çərçivəsində müqəddəs məkanda Azərbaycanın 30-dan çox rəssam və heykəltəraşının iştirakı ilə “Şuşa – Bahar əfsanəsi” adlı plener oldu. Festivalda iştirak edən Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Əməkdar rəssamı, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva bu tədbir, ümumilikdə, Şuşa ilə bağlı təəssüratlarını bizimlə belə bölüşdü: “Bildiyiniz kimi, Prezident cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə 2022-ci il ölkəmizdə “Şuşa ili” elan olunub. Dövlət başçısının mədəniyyət paytaxtımızla bağlı





bu Sərəncamı biz rəssamların da üzərinə müəyyən öhdəliklər və ciddi vəzifələr qoyub. Bu mötəbər hadisəni rəhbər tutaraq biz Naxçıvan rəssamları da qədim şəhərin zəngin mədəni irsini tanıtmaq məqsədilə keçirilən festival çərçivəsində təşkil olunan “Şuşa – Bahar əfsanəsi” adlı plenerdə iştirak etdik, üç gün müddətində Şuşanın təbiət mənzərələri, abidələri ilə bağlı müxtəlif mövzularda eskizlər hazırladıq. Həmin eskizlər əsasında indi sərgiyə hazırlaşırıq. Bakıda böyük bir sərgi nəzərdə tutulur. Biz naxçıvanlı rəssamlar da Şuşa təəssüratlarımızı rəsm əsərlərimiz vasitəsilə həmin sərgidə əks etdirəcəyik. Ümumiyyətlə, mənim öz yaradıcılığımda Şuşaya həsr olunmuş rəsmlər ilk dəfə bu gözəl yurd yerinə gedəndən sonra həyata vəsiqə alıb. Naxçıvan rəssamlarının – Əli Səfərov, Həmzə Sadiqov, Həbibə Allahverdiyeva, Həbib Allahverdiyevin yaradıcılığında, xüsusən Böyük Qələbəmizdən sonra Şuşa mövzusuna geniş yer verilib.

Mənə Şuşanı görmək iki dəfə qismət olub, – deyən rəssam söhbətinə belə davam edir: Şuşa ilə bağlı ilk təəssüratlarla indiki tamamilə fərqlidir. Artıq Şuşa yenilənir, gözəlləşir. Zəfər yolu, demək olar ki, salınıb. Nəqliyyat rahatlıqla Şuşaya gedir. Ona görə də bu dəfə Şuşa təəssüratlarım mənim üçün daha valehedici oldu. Çünki bu dəfə mədəniyyət paytaxtımız bizi öz libasında qarşıladı. Mahnıda deyildiyi kimi: “Şuşanın dağları başı dumanlı, qırmızı koftalı, yaşıl tumanlı”. Şuşa bu dəfə bizi al örpəyi, dumanlı dağları, başı üzərində əbədi dalğalanacaq üçrəngli, ay-ulduzlu bayrağı ilə salamladı. Yağış, çən, sis isə Şuşaya bir başqa gözəllik qatırdı. Mən hər zaman düşünürəm ki, Şuşada bir qadın gözəlliyi, qadın naz-qəmzəsi var.

Ülviyyə xanım deyir ki, bu dəfə mənə xarıbülbülü görmək də nəsib oldu. Heç vaxt o gülü görməmişdim. Amma bu dəfə festivalda böyük dibçəklərin içərisində xarıbülbül də əkilmişdi. Və demək olar ki, festivalı başdan ayağa xarıbülbül bəzəyirdi. Mənim üçün Şuşa bir ziyarətgahdır. Çünki Şuşada şəhidlərimizin torpağa axaraq o yurd yerini daha da müqəddəsləşdirən qanları var. Həsrətində olduğumuz xarıbülbül məhz onların qanları ilə sulanıb. Ona görə də mən Şuşanı ziyarətgah kimi görürəm.

Ülviyyə Həmzəyeva deyir ki, bu gün hər bir naxçıvanlının ürəyi Şuşa üçün döyünür, bilirəm ki, hər kəs Şuşaya getmək, oranı ziyarət etmək istəyir. İnşallah, hər bir azərbaycanlıya oraya getmək nəsib olar. Şuşada artıq həyat var. Şuşadan artıq fəryad səsləri deyil, sevinc sədaları gəlir. Bizim güllələnmiş heykəllərimiz Bakıda İncəsənət Muzeyinin arxasında qorunub saxlanılırdı və bu bizim ürəyimizi sızladırdı. Çünki onların yeri Şuşa idi. Şükürlər olsun ki, onların qisməti yenidən Şuşaya qayıtmaq oldu. Heykəltəraşları onları bərpa etməyə dəvət edəndə, belə bir ümumi bir fikrə gəlindi ki, heykəllər və büstlərdəki güllə izlərinə toxunulmasın. Bu da bizim tarixmizin, taleyimizin bir nişanəsi olaraq qalsın.

Şuşa elə yerdir ki, 3 gün bəs etmir oranı ziyarət etməyə. Arzusundaydıq ki, Şuşanın muzeylərini ziyarət edək. Lakin bərpa işləri getdiyinə görə bu səfərimizdə həmin arzumuz reallaşmadı. İnşallah, gələn gedişlərimizdə bunu da görəcəyik. Şuşada artıq otellər salınıb, oraya çoxsaylı turistlər gəlir. Bilirsiniz, Şuşada elə bir mənzərə var ki, o mənzərəni hardasa, bəlkə də, Yunanıstanda və yaxud Türkiyədə görmüşdüm. Yəni antik dövrün qalıqları, qırılmış, tökülmüş evlər. Şuşada çox maraqlı memarlıq üslubu var. O üslubu vandal ermənilər nə qədər dağıtsalar da, həmin memarlıq özünəməxsus şəkildə Şuşaya bir başqa gözəllik verir, qürurla oranı bəzəyir. Çox istəyərdim ki, bəzi dağılmış memarlıq abidələri eləcə saxlanılsın. Çünki Şuşa turizm mərkəzidir və oraya dünyanın hər yerindən insanlar axın edir. Məhz bu səbəbdən istərdim ki, bütün dünya öz gözləri ilə erməni vəhşiliyinin, erməni vandallığının şahidi olsun. Şuşada tikilən evlərdə xüsusi tağlar var idi. Belə evlərə, deyərdim ki, Azərbaycanın heç bir yerində rast gəlinməyib.

*Bəli, Vətən eşqi ilə dünən azad edib vüsalına qovuşduğumuz, bu gün, sabah dirçəldəcəyimiz Şuşada indi qədimlik və müasirliyin ab-havası birləşərək başqa bir ahəng yaradır. Bu ab-hava bütün Azərbaycan sevgisindən yaranıb. O sevgi ki Şuşanı vəhşi erməninin caynaqlarından əbədi azadlığa qovuşdurdu.*

✍ **Gülcamal TAHİROVA**

## Yeni avtomat telefon stansiyaları quraşdırılır

Muxtar respublikada iqtisadiyyatın aparıcı sahələrindən olan rabitə və yeni texnologiyaların inkişafına xüsusi diqqət göstərilir. Bu məqsədlə rabitə və yeni texnologiyalar sahəsində yeni infrastrukturun qurulması, müasir texnologiyaların tətbiqi istiqamətində bir sıra tədbirlər həyata keçirilir.



Muxtar respublikanın sosial-iqtisadi inkişafı fonunda əhalinin, habelə yeni inşa edilən fərdi yaşayış evlərinin artımı yeni abonentlərin rabitə və internet xidmətləri ilə əhatə olunmasını aktual edir. Əhalinin rabitə xidmətlərinə olan tələbatının ödənilməsi məqsədilə yeni nəsil avadanlıqlar quraşdırılır, mövcud avtomat telefon stansiyalarının internet tutumları artırılır, habelə bir sıra yerlərdə aztutumlu avtomat telefon stansiyaları yüksək montaj tutumuna malik yeni nəsil avtomat telefon stansiyaları ilə dəyişdirilir. Əhalinin müasir rabitə xidmətlərinə olan tələbatı nəzərə alınaraq 256 nömrə tutumuna malik yeni HUAWEI NGN tipli Avtomat Telefon Stansiyası Naxçıvan şəhərinin Qaraçuq kəndində, 256 nömrəlik yeni HUAWEI NGN tipli Avtomat Telefon Stansiyası Babək rayonunun Nehrəm qəsəbəsində və 448 montaj tutumlu yeni HUAWEI NGN tipli Avtomat Telefon Stansiyasının isə Şahbuz şəhərinin “Bakı” küçəsində quraşdırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir.

Belə ki, avtomat telefon stansiyalarının yerləşdiyi ərazidə dəmir-betonlama işləri görülmüş, yeraltı fiber-optik xətlər inşa olunmuş, kabel-kanalizasiya qurğularından borular vasitəsilə çəkilərək həmin ərazidə yeni rabitə infrastrukturunun qurulmasına şərait yaranmışdır. Həmçinin yeni paylayıcı şkaflar quraşdırılmış, istismara yararsız rabitə xətləri yeniləri ilə əvəz edilmiş, yeni abonent qutuları əlavə edilməklə rabitə xətlərində olan digər nasazlıqlar bərpa edilmişdir. Avtomat telefon stansiyaları quraşdırıldıqdan sonra ətrafı mühafizə üçün çəpərlənəcəkdir.

Qeyd edək ki, NGN texnologiyası əsasında quraşdırılan avtomat telefon stansiyaları strukturuna görə daha sadə və səmərəli şəbəkə konfiqurasiyasına malik ən müasir telekommunikasiya sistemi olub, istifadəçilərə telefon rabitəsi ilə yanaşı, multimedia xidmətləri, yüksəksürətli internet, videogörüntülü rabitə və çoxlu sayda servis xidmətləri təqdim edir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

Oxunması zəruri olan kitablar

## “Əxlaqi-Nasiri” əsərində tərbiyə məsələləri və ailə dəyərləri

***İnsanın əqidəsinin formalaşıb kamilləşməsində, mənəvi aləminin zənginləşməsində, dünyagörüşünün genişlənməsində mütaliənin rolu müstəsna əhəmiyyət kəsb edir. Kitab qiymətli xəzinədir, bu xəzinədən mümkün qədər faydalanmaq lazımdır. Bununla yanaşı, kitab seçimi də diqqət tələb edən məsələdir. Bu mənada, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş “Oxunması zəruri olan kitabların Siyahısı”nın əhəmiyyəti böyükdür. Bu kitablar gənc və yeniyetmələrin idrak qabiliyyətlərinin formalaşmasına, həyatın mənasını dərk etmələrinə şərait yaradır. Çünki mənəvi sərvət o zaman parlaq olur ki, elmdən, kitabdan qidalanır. Siyahıya daxil olan kitablardan biri də Nəsirəddin Tusinin “Əxlaqi-Nasiri” əsəridir.***

Nadir istedad sahibləri öz yaradıcı təfəkkürləri ilə əsrlərin qovğalarından sıyrılaraq gələcəyə üz tutublar. Belə şəxsiyyətlərin ərsəyə gətirdikləri daim sənətin və insanlığın zirvəsində dayanır. Bu görkəmli şəxsiyyətlərdən biri də XIII əsrdə yaşamış riyaziyyat və astronomiya alimi, əxlaq nəzəriyyəçisi Məhəmməd Nəsirəddin Tusi (1201-1274) olmuşdur. Alimin “Evklidin şərhi”, “Hərəkətdə olan Yer kürəsi”, “Almacestin təhlili”, “Gecə və gündüz”, “Teleskop haqqında”, “İki göy cismi”, “Günəşin çıxması və qürubu”, “Kainat cisimlərinin zühuru”, “Kürə və silindr”, “Konuslar”, “Dairənin kvadratlanması”, “Şüanın istiqaməti və əks olunması”, “Əxlaqi-Nasiri”, “Başlanğıc və son”, “Təqvim və ulduzların seyri” və digər 100-dək əsəri neçə əsrdir ki, dünyanın ən böyük alimləri tərəfindən öyrənilir, təhlil və tədqiq olunur. Həmçinin onun əsərləri Avropada həndəsə və triqonometriyanın inkişafında mühüm rol oynamışdır. Lakin Tusini Şərq xalqlarına sevdirən onun “Əxlaqi-Nasiri” əsəridir. O bu əsəri ilə Şərq xalqlarının elm-maarif və pedaqoji fikir tarixinə əxlaq nəzəriyyəçisi kimi daxil olmuşdur. Tusi “Əxlaqi-Nasiri” əsəri ilə, demək olar ki, özündən əvvəl Yaxın və Orta Şərqdə hökm sürən əxlaqi-fəlsəfi fikirlərə yekun vurmuş, bunların yığcam icmalını verməklə öz orijinal fikirlərini də buraya əlavə etmişdir.

Dilinin səlisliyi ilə şöhrət tapan bu əsər 700 ildən artıq bir müddətdə mədrəsələrdə əxlaq dərsliyi kimi istifadə edilmişdir. Tədqiqatçı-alimlər “Əxlaqi-Nasiri” əsərini əxlaq kodeksi daşıyan “Qurani-Kərim”dən sonra insanı həyatda düzgün mövqe tutmağa istiqamətləndirmək baxımından müqəddəs əsər hesab etmişlər.

Tusi bu əsərdə, əsasən, özünün fəlsəfi, əxlaqi, ictimai və siyasi fikirlərini verməyə çalışmışdır. Əsərdə hüquq, fəlsəfə, iqtisadiyyat, psixologiya barəsində fikirlər yer alsa da, uşaq tərbiyə etmək qaydaları haqqındakı görüşlər, xoşbəxt cəmiyyətin qurulması haqqında ideyalar daha çox ön plana çəkilmişdir. Müəllif əsərin “Övlad saxlamaq və tərbiyə etmək qaydaları” bölməsində uşaqların təlim və tərbiyəsinin formalaşmasının vacib olan məqamlarına toxunmuşdur. O yazır: “Uşağa, ilk növbədə, yaxşı bir ad qoymaq lazımdır. Namünasib ad qoyulsa, uşaq bütün ömrü boyu bundan xəcalət çəkər, qanı qaralar. Sonra ağıllı və sağlam dayə tapmaq lazımdır, çünki pis adət və xəstəliyin çoxu süd vasitəsilə uşağa keçər:

*Südəmər bir uşaq tutmamış maya,*
*Tutmayın siz axmaq, xəstə bir daya.*
*Süd ilə bədənə girərsə, azar*
*O, bədəndən yalnız öləndə çıxar.*

Burada “dayə” sözü müasir dilimizdə olduğu kimi uşağı saxlayan, ona qulluq edən şəxs kimi yox, özgə uşaqlarına öz südünü verib bəsləyən qadın – el dili ilə desək, – “süd anası” mənasında öz əksini tapmışdır. Bir nüansı da qeyd etmək yerinə düşər ki, həqiqətən də, bir çox mənəvi və əxlaqi keyfiyyətlər məhz süd vasitəsilə uşağa ötürülür. Araşdırmalar nəticəsində müəyyən olunub ki, təbii ana südü ilə qidalanma körpələrin uzunmüddətli beyin inkişafına əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. Tusi də burada məhz həmin məqamları vurğulamışdır.



Həmin bölmədə digər bir məqam isə uşağın lap kiçik yaşlarından təlim-tərbiyəyə cəlb edilməsidir. Əsərdə bu haqda deyilir: “Həkim Sokratdan soruşdular: – Sən nə üçün çox vaxt yeniyetmələrlə həmsöhbət olursan? O dedi: – Ona görə ki nazik və tər budaqları düzəltmək asandır, təravəti getmiş, qabığı qurumuş, özü bərkimiş ağacı düzəltmək isə mümkün deyildir”. Böyük mütəfəkkirə görə, uşağı körpəlikdən tərbiyə etmək, balaca ikən pis adətlərə, bəd əməllərə nifrət yaratmaq lazımdır. O qeyd etmişdir ki, ilkin tərbiyəni verdikdən sonra dərslə məşğul olub, elm öyrətmək olar.

Müdrik pedaqoji təfəkkür sahibi Tusi məsləhət görür ki, uşağı mehribanlıq və məhəbbət doğuran xoş kəlamlarla tərbiyə etmək lazımdır. O, eyni zamanda uşağa çox pul verməyi, şirnikdirməyi, onun yersiz istək və arzularını yerinə yetirməyi, uşağı çox danlamağı, hər şeyi ona qadağan etməyi məsləhət görmür. Çünki uşaq qadağan olan şeylərə həvəskar olar, quru nəsihətə qulaq asmaqdan bezər, daha çox hiylələrə əl atar.

Görkəmli alimin sənət seçmək haqqında söylədiyi fikirlər də pedaqoji baxımdan dəyərlidir. Onun fikrinə görə, uşağın hər hansı bir peşəyə qabiliyyəti və həvəsi yoxdursa, onu həmin sahəyə məcbur etmək olmaz. Dahi alim Tusi peşə seçməklə fitri istedadın inkişaf etdirilməsini çox vacib və əhəmiyyətli hesab edir.

Alim-filosof “Əxlaqi-Nasiri” əsərində ailə və mənzil ilə bağlı fikirlərini də bildirmişdir. Əsərdə “mənzil” dedikdə bina deyil, aralarında müəyyən ictimai, mədəni münasibət olan ailə nəzərdə tutulur. Ailə özü də kiçik bir dövlət dəyərində təqdim olunur. O yazır: “Bilmək lazımdır ki, burada “mənzil” dedikdə kərpic, palçıq və daşdan tikilən bina nəzərdə tutulmur. Bu elə bir xüsusi quruluşdur ki, orada ərlə arvad, valideynlə övlad, xidmət edilənlə xidmət edən, mal sahibi ilə mal arasında müəyyən münasibət olmalıdır”. Tusiyə görə, ailə sağlam olarsa, varlığı da, kasıblığı da sınaq kimi qəbul edər və yaşadıqları çətinliklərdən sarsılmaz. Həqiqətən də, təməli sağlam qoyulmuş, bir-birinə qarşılıqlı hörmət bəsləyən ailə üçün daşdan, mərmərdən tikilmiş evdə və yaxud komada yaşamağın fərqi yoxdur. Onlar bir ömürboyu səadət içində yaşayacaqdır. Böyük mütəfəkkir ailəni bütöv bir bədənə, ailə üzvlərini bədən üzvlərinə oxşadır, ailə dolandırmaq sənətini isə bədəni sağlam saxlamaq istəyən həkimlik sənəti ilə müqayisə edir. “Təbib insan bədəni, üzvləri arasında münasibətin sağlamlığına necə fikir verirsə, ailə başçısı da bütün ailə, eləcə də onun üzvləri arasında olan münasibətlərə diqqət yetirməlidir”. Buradan belə bir nəticəyə gəlmək olar ki, ailədaxili münasibətdə hiss və düşüncələr açıq demək, qarşı tərəfi dinləməyi bacarmaq lazımdır. Bu, problemlərin vaxtında həllinə, münasibətlərin möhkəmliyinə və tərəflərin bir-birinə etimad göstərməsinə kömək edir. Sağlam ailə mühiti sağlam cəmiyyətdir.

**Gülarə BABAYEVA**
***Naxçıvan Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyatın tədrisi metodikası və metodologiyası ixtisası üzrə I kurs magistrantı***



# Əsrlərin yadigarı: Böyük bağ

***Böyük bağ Naxçıvanın ikiəsrlik tarixinə şahidlik etmiş tarix-etnoqrafik abidədir. Naxçıvan şəhərində hələ də öz gözəlliyini qoruyub saxlayan, qoca ağacları ilə sakinlərin əsl istirahət məkanına çevrilən bu bağın yaranma tarixinə nəzər saldıqda məlum olur ki, bağ Azərbaycan Rusiyaya ilhaq edildikdən sonra – 1914-cü ildə şəhər xeyriyyəçilərinin vəsaiti ilə (xüsusilə Şahbazağa Kəngərli, Kərbəlayi Musa, Miriş Ağanın təşəbbüsü ilə) "Padşahlıq bağı" adı ilə salınmışdır. Bağın salındığı ərazi Naxçıvan əhalisinin köhnə qəbiristanlığı olmuşdur. Ərazinin köhnə qəbiristanlıq olması haqqında məlumata rus tədqiqatçısı K.A.Nikitinin yazılarında da rast gəlinir. O yazır ki, bağın olduğu ərazi Naxçıvan şəhərinin qədim tatar (azərbaycanlı) qəbiristanlığı olmuşdur. O həmçinin bağda müxtəlif növ – çinar, qaraağac, akasiya kimi dekorativ ağacların olması haqqında da məlumat verir. Bağda əkilən ağacları suvarmaq məqsədilə Bazar çayından ora su arxı çəkilmişdir.***

1926-cı ildə Naxçıvan şəhərinə gələn rus tədqiqatçısı V.M.Sısoev şəhər haqqında öz təəssüratlarını bildirərkən Böyük bağ haqqında da maraqlı məlumatlar vermişdir. Müəllif yazır: "Şəhərdə ən sevimli yer olan bağda çoxlu cavan ağaclar var. Bir neçə ildən sonra burada geniş tennis kortu yaradılacaq, həmin sahədə özündə keçmiş ənənələri əks etdirən klub mövcud idi. Burada, həmçinin rəngli taxtalardan düzəldilmiş şəhər teatrı binası fəaliyyət göstərirdi. Teatr 500 nəfərlik tutuma malik idi. Teatrın qarşısında sadə bir bina – restoran var idi. Burada çox da baha olmayan yeməklər verilirdi. Teatrda yay mövsümündə axşamlar Şərq çalğı alətləri (tar, kamança və digərləri) vasitəsilə konsertlər verilirdi. Axşamlar şəhər əhalisinin əksəriyyəti bağa gəlib əylənirdilər".



Bağda olan klubda, həmçinin tamaşalar da göstərilirdi. Filologiya elmləri doktoru Fərman Xəlilov yazır ki, Naxçıvanın teatr həvəskarları 1917-ci ilin iyun ayında Əliqulu Qəmküsarın Tiflisdən müvəqqəti olaraq Naxçıvana gəlməsindən istifadə edib, "Ölülər"i hazırlayırlar və şəhər bağındakı klubda mövqeyi-tamaşaya qoyurlar.

Şəhərin yaşlı sakinlərinin dediklərinə görə, bağda, həmçinin Yay kinoteatrı da fəaliyyət göstərirdi. Hətta tamaşanı seyr etmək üçün oturacaqlar da qoyulmuşdu. Böyük bağda olan həmin klub 1951-ci ildə yanğın nəticəsində məhv olmuşdur.

1930-cu ildə Qaçaq Quşdanın silahlı dəstəsi ilə hökumət adamları arasındakı atışmalar zamanı həlak olanların cənazəsi Böyük bağda dəfn edilir. Ancaq 1938-ci ildə Böyük bağda teatr binası tikmək istəyərkən qəbirlər sökülərək ərazinin cənub tərəfinə köçürülür. Bir neçə ildən sonra isə parkdakı "17-lər" adlanan həmin yerə sərhəd əsgərlərindən həlak olmuş iki nəfəri də dəfn edirlər. Meydançada, həmçinin 1930-cu ilin aprel-may aylarında Qaçaq Quşdanın silahlı dəstəsinə qarşı atışmalarda həlak olan və kəndlərində basdırılan polis işçilərinin də adları qeyd olunmuşdur.



Sonrakı illərdə memar Məmməd İbrahimovun layihəsi əsasında parkda yenidənqurma işləri aparılıb və köhnə qəbirlərin yerində monumental abidə ucaldılır. Dəfn edilənlərin adlı siyahısı da orada qeyd olunur. Məlumat üçün bildirək ki, bağda "17-lər" adlanan həmin yerdə dəfn olunanların adlı siyahıları Naxçıvan Dövlət Arxiv İdarəsində saxlanılır.

Naxçıvan şəhər sakini, qocaman ziyalı Südabə Süleymanova deyir ki, vaxtilə parkdakı məzarların önündəki meydanda vətənpərvərlik tədbirləri keçirilirdi. Ötən əsrin 50-ci illərində, hətta ondan da əvvəl bağa "V.İ.Lenin adına Mədəniyyət və İstirahət Parkı" adı verilsə də, şəhər əhalisi bu bağı həmişə "Böyük bağ" adlandırırdı.

Onu da qeyd edək ki, Böyük bağ haqqında akademik Məmməd Cəfər Cəfərovun "Xatirələr"ində də rast gəlinir. Akademik Naxçıvan şəhərinin mərkəzi küçələrindən bəhs edərək yazırdı ki, şəhərin bir hissəsinin "Skver tərəfi", birinin "Rus kilsəsi tərəfi" adlandırıldığı uzun bir küçə də var idi ki, nə bu küçədəki həyat başqa məhəllələrin həyatına, nə də küçənin sakinləri başqa məhəllənin sakinlərinə bənzəyirdi. Küçənin axırında rus kilsəsi yerləşirdi. Südabə Süleymanovanın dediyinə görə, rus kilsəsi indiki Tibb Kollecinin yerində tikilmişdi (həmin kollecin binası əvvəl mehmanxana idi). M.Cəfər yazır: Rus kilsəsinə yaxın bir ərazidə bir neçə alleyadan ibarət bir bağ salınmışdı. Buna "Padşahlıq bağı" da deyirdilər, "Böyük bağ" da. "Böyük bağ" ona görə deyirdilər ki, Zaviyə tərəfdə, Bəhram xanın evinin qabağında başqa bir kiçik bağ da vardı. "Padşahlıq bağı"nın ağacları dekorativ ağaclar idi. Bağın rus kilsəsinə tərəf hissəsində 100-150 adam tutan klub vardı (indi bağ qalır, ancaq o klub yoxdur, nə zamansa yanmışdır).

Şəhərin yaşlı sakinləri deyirlər ki, bağ hər tərəfdən dəmir çəpərlə hasarlanmışdı. Bağa giriş iki yerdən idi. Məmməd Cəfər öz xatirələrində yazır ki, nə Padşahlıq bağına, nə də kluba "Qara camaatı" (yəni sənətkarlar, kəndlilər, çayçı, çörəkçi, dəmirçi, dəllək, faytonçu, baqqal, bağçı, bostançı və xırda tacirlər) buraxmazdılar (əslində, buraxsaydılar da bu zümrədən olanların heç biri ora ayaq basmazdı). Bağa, kluba ancaq iri çinovniklər, onların ailə üzvləri, xan, bəy balaları, tək-tük çox varlı tacir balaları, bir də padşahlıq qulluğunda olan iri çinovniklərə yaxın olan bəzi oxumuşlar girə bilərdilər. Göründüyü kimi, aid olduğu dövrdə Böyük bağ şəhər əhalisinin deyil, yalnız rus məmurlarının və varlı insanların istirahət məkanı idi.

Bağda 1938-ci ildə tikilən teatr binası 1951-ci ilə kimi fəaliyyət göstərir. Lakin 1951-ci ildə baş verən yanğın nəticəsində bina tamamilə yararsız vəziyyətə düşür. 1964-cü ildə Naxçıvan Muxtar Respublikasının 40 illiyində teatr yeni binaya köçürülür. 70-ci illərin ortalarında isə bağda Naxçıvan Dövlət Filarmoniyası fəaliyyət göstərməyə başladı. Filarmoniya Heydər Əliyev Sarayına köçdükdən sonra orada Mədəniyyət evi fəaliyyətə başladı. Mədəniyyət evinin bir hissəsində isə Naxçıvan şəhər kitabxanası yaradıldı. Kitabxananın təşəbbüsü ilə bağda qəzet guşəsi təşkil olundu ki, həmin guşədə gündəlik Azərbaycan və rus dillərində nəşr olunan qəzetlər şəhər əhalisinin diqqətinə çatdırılırdı. Bağda böyüklərin istirahəti ilə yanaşı, uşaqların da əylənməsi üçün karusellər və müxtəlif heyvan fiqurları var idi. Bağda məktəb şagirdləri üçün viktorinalar təşkil edilir, müxtəlif bilik yarışmaları keçirilirdi. Bununla yanaşı, indiki Gənclər və İdman Nazirliyinin (köhnə teatrın) qarşısında müxtəlif idman oyunu masaları da qoyulmuşdu. Bağda, həmçinin müxtəlif meydan oyunları da keçirilirmiş.

Onu da qeyd edək ki, vaxtilə bağda hündürlüyü 70 metrə çatan qüllə olub. Şəhərin özünə güvənən qorxmaz gəncləri bu qülləyə çıxaraq oradan paraşütlə tullanarmışlar. Bu qüllə 1941-ci ilə qədər bağda olub, lakin 1941-ci ildə həmin qüllə iki dəfə partladılaraq məhv edilib. Hətta deyilənə görə, qüllə birinci dəfə partladılanda şəhər əhalisi bərk təşvişə düşüb.

Naxçıvan şəhər əhalisinin və şəhərə gələn qonaqların istirahət məkanı olan bu bağ 1980-ci ildə yenidən bərpa olunaraq istifadəyə verilir.

Müstəqillik əldə edildikdən sonra isə bağda yenidənqurma işləri aparılmış, ictimai iaşə müəssisələri tikilərək əhalinin istifadəsinə verilmişdir. Muxtar respublika rəhbərinin təşəbbüsü və xüsusi tapşırığı əsasında parkın əsas hissəsində yenidənqurma işləri aparılmış, ərazidə yeni oturacaqlar quraşdırılmış, ətraf abadlaşdırılmış, "Çay evi" yenidən qurulmuş, ahılların istirahəti üçün köşklər yaradılmışdır. Parkın digər hissəsində isə Əyləncə Mərkəzi yerləşir. Bu gün Böyük bağ şəhər sakinlərinin və şəhərimizə gələn qonaqların ən sevimli istirahət məkanına çevrilmişdir.

***Aytəkin QƏHRƏMANOVA***
***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru***

## "Heydər Əliyev kuboku" uğrunda yarışlar keçirilib



*Ulu öndərin xatirəsinə həsr olunmuş idman dırmanması üzrə muxtar respublika turniri keçirilib. Yeniyetmə və gəncləri əhatə edən yarış şəhər və rayon mərhələlərində ilk üç yeri tutan idmançıların iştirakı ilə reallaşıb.*

Gənclər və İdman, Təhsil nazirlikləri ilə Hava və Ekstremal İdman Növləri Federasiyası tərəfindən birgə təşkil olunan yarışda Naxçıvan şəhərini təmsil edən Süleyman İsmayılov ən yaxşı göstərici ilə qalib olub. Şahbuz idmançısı Murad Əliyev ikinci sırada qərarlaşıb. Ordubad təmsilçisi Mehdi Əliyev isə üçüncü olub.

Mükafatlandırmadan öncə gənclər və idman naziri Ramil Hacı və federasiya sədri Mayis Əliyev çıxış edərək Azərbaycan idmanının inkişafında ümummilli liderin misilsiz xidmətləri olduğunu xatırladıblar. Qədim idman ənənələri ilə seçilən ölkəmizdə gənc nəslin idmana cəlbinə daim önəm verilməsi, bu sahədə müasir metodların tətbiqi və qazanılan uğurların dövlət siyasətinin ardıcıl icrası sayəsində reallaşdığı diqqətə çatdırılıb. Qeyd olunub ki, bu siyasi istiqamətlər üzrə muxtar respublikada da məqsədyönlü işlər görülür. Naxçıvanın təbii coğrafi relyefinin ekstremal idman növləri üçün əlverişli olması əsas verir ki, burada həm müvafiq idman növləri, həm də ekstremal turizm inkişaf etdirilsin. Perspektivlər nəzərə alınmaqla hər iki sahədə aktiv fəaliyyət davam etdirilir.

Çıxış edənlər muxtar respublikada gənclərin hərtərəfli inkişafı və idmana göstərilən qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıqlarını ifadə ediblər.

Sonra ilk üçlükdə qərarlaşan idmançılara diplom və hədiyyələr, həvəsləndirici yerə layiq görülənlərə isə fəxri fərman verilib. Qalib iştirakçıya "Heydər Əliyev kuboku" təqdim olunub.

* * *



İlham Əliyev adına Olimpiya İdman Kompleksində ümummilli liderin anadan olmasının 99-cu ildönümünə həsr olunan muxtar respublika turniri başa çatıb. Kişilərdən ibarət komandaları əhatə edən turnirdə kollektivlər iki yarımqrupda mübarizə aparıb və qrupu ilk iki sırada bitirənlər "play-off" mərhələsinə adlayıblar. 3 gün davam edən yarışın son oyun günündə iki oyun reallaşıb. Üçüncü yeri müəyyənləşdirən "Şərur"-"Sədərək" görüşündə üstün tərəf şərurlular olub: 3-1 (25:13, 25:27, 25:20, 25:17).

Final qarşılaşmasında isə "Naxçıvan" və "Culfa" komandaları meydanda olub. Gərgin, maraqlı mübarizədən 3-1 (25:21, 20:25, 25:18, 25:23) hesablı qələbə ilə ayrılan Culfa təmsilçisi turnirin qalibi olub.

İlk üçlükdəki komandalar diplom və hədiyyələrlə təltif ediliblər. Əsas mükafat – "Heydər Əliyev kuboku" Culfa voleybolçularına verilib.

Mükafatları gənclər və idman naziri Ramil Hacı və Voleybol Federasiyasının sədri Mənşur Gülməmmədli təqdim ediblər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Muxtar respublika paralimpiyaçısı milli komandanın heyətində təlim-məşq toplanışında iştirak edib

Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyası tərəfindən müxtəlif idman yarışları, maarifləndirici tədbirlər keçirilir, respublika və beynəlxalq miqyaslı yarışlarda muxtar respublika təmsilçilərinin iştirakına xüsusi önəm verilir. Görülən işlər son dövrlərdə öz uğurlu nəticələrini göstərməkdədir.



Artıq paralimpiyaçılarımız müxtəlif muxtar respublika səviyyəli yarışlarda yüksək nəticələr göstərməklə yanaşı, Azərbaycan milli komandalarının heyətinə də mütəmadi cəlb edilirlər.

Son olaraq federasiyanın qolbol idman növü üzrə paralimpiyaçısı Qəzənfər Zamanov milli komandanın heyətində İran İslam Respublikasında təlim-məşq toplanışında olub. May ayının 7-dən 21-dək davam edən təlim-məşq prosesləri zamanı idmançıların beynəlxalq yarışlara hazırlığı yoxlanılıb, bu istiqamətdə idmançılara müvafiq tövsiyə və tapşırıqlar verilib.

Qeyd edək ki, ötən il də qolbol idman növü üzrə Azərbaycan milli komandasının təlim-məşq toplanışına muxtar respublikadan paralimpiyaçı idmançılar və məşqçi-müəllim dəvət olunmuşdu.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Şərur rayon Püsyan kənd sakini Niftəliyev Qərib İsgəndər oğlunun adına olan JN-298 inventar nömrəli Dövlət Aktı itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Güntac Şahməmmədli
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1500. Sifariş № 442